**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

060201-Ədəbiyyatşünaslıq ("Türk xalqları ədəbiyyatı")
Kod: İF-M5665

**XX ƏSR ÖZBƏK ŞEİRİ**

**fənninin**

**P R O Q R A M I**

# Magistr hazırlığı üçün

**BAKI -2016**

**Tərtib edən:** **Firuzə Abdulla qızı Ağayeva**
*filologiya üzrə elmləri doktoru*

**Redaktor:** **Ramiz Baxşəli oğlu Əskərov**
*filologiya üzrə elmləri doktoru*

**Rəyçilər:** **Elman Hilal oğluQuliyev**
*filologiya üzrə elmləri doktoru, professor*
**Kəmalə Nurulla qızı Nəcəfova**
*filologiya üzrə fəlsəfə doktoru*

# İzahat vərəqi

Özbək xalqının ədəbiyyatı türk xalqlarının tərkibində 1973-cü ildən keçmiş Azərbaycan Dövlət Universiteti və indiki Bakı Dövlət Universitetinin filologiya fakültələrində tədris olunur.

Azərbaycan müstəqillik əldə etdikdən və soykökə qayıdışdan sonra türk dünyasına bütün sahələrdə marağın artması özünü açıq-aşkar göstərməyə başladı. Ölkəmizdə olduğu kimi Özbəkistanda da müstəqillik (1991-ci il 1 sentyabr) əhval-ruhiyyəsinin xalqın mənəviyyatına və şüuruna dərindən sirayət etməsi, ölkələrin iqtisadi və mədəni qüdrətinin yüksəlməsi, tanınmış sənətkarların bir –biri ilə ünsiyyətdə olması ədəbi əlaqələrin miqyasını daha da genişləndirdi. Zamanın tərəqqiyə, inkişafa doğru hərəkəti poeziya ilə həmahəng olmağa başladı.

XX əsr özbək poeziyası da "Türk xalqları ədəbiyyatı" fənninin tərkib hissəsidir. Bu fənn filologiya fakültəsinin magistratura şöbəsi üçün nəzərdə tutulmuşdur. Fənnə 15 saat mühazirə, 15 saat məşğələ ayrılmışdır.

Qədim və zəngin tarixə malik olan özbək poeziyasi inkişafının müəyyən dövrlərində müxtəlif mərhələlərdən keçmişdir. Istər XX əsrin I , istərsə də II yarısı ədəbi aləmə qədəm qoyan şairlər nəslinin poetik fikirlərinin inkişaf dinamikası göstərmişdir ki, bu dövrdə poeziyanın həyata və həqiqətlərə bağlılıq ənənəsi, milli xarakter və dəyərlərin ifadəsi daha güclü olmuşdur. Bu xalqın ədəbiyyatının, mədəniyyətinin öyrənilməsi, tədrisi və təbliği Azərbaycan və özbək xalqları arasında ədəbi-mədəni əlaqələrin

kordinatlarının genişlənməsində müstəsna əhəmiyyətə malikdir.

Proqramda XX əsr özbək poeziyası üç mərhələdə təqdim olunur:

1. 1920-1930-cu illər. Oktyabr çevrilişi və Vətəndaş müharibəsi illəri.
2. 1930-1956-cı illər. Vətən müharibəsi və bərpa dövrü illəri.
3. 1956-1995-ci illər. Yeni dövr özbək poeziyası.

Özbək şeirinin bu mərhələləri təxminən 80 illik bir dövrü əhatə edir.

**Fənnin tədrisində məqsəd:** "Türk xalqları ədəbiyyatı" ixtisası üzrə magistr təhsil pilləsində oxuyan tələbələr üçün nəzərdə tutulmuş "XX əsr özbək şeiri" fənninin tədrisi zamanı özbək şeirinin bu mərhələsində 80 illik bir dövr əhatə olunur. Poeziyanın bu əsrdə özbək ədəbiyyatında ilkin inkişaf mərhələsindən başlamış mqasir dövrə qədərki zaman kəsiyində ədəbiyyata gələn şəxsiyyətlərin yaradıcılığı haqda tələbələrə məlumat vermək məqsədi qarşıya qoyulmuşdur.

Magistrlər "XX əsr özbək şeiri" fənnini öyrənməklə **bilməlidir:**

a) XX əsr özbək poeziyasının inkişafı və istiqamətləri;
b) Özbək şeirinin müharibəyə qədərki və müharibədən sonrakı dövrdə nailiyyətləri;
c) XX əsrin II yarısında özbək xalqının milli təfəkkür tarixində iz buraxmış şəxsiyyətlərin portretləri və yaradıcılıq axtarışları;

d) Müasir özbək şeirinin indiki mənzərəsi. Müstəqillik dövründə Özbək-Azərbaycan ədəbi əlaqələrinin yeni yolu. Özbək şeirində Azərbaycan mövzusu.

Magistrlər müasir dünyada xalqlar arasında ədəbi əlaqələrin öyrənilməsini və təbliğ edilməsini **bacarmalıdır.**

Magistrlikdə ideya, məzmun axtarışlarına, üsul, vasitə və metodik biliklərə **yiyələnməlidir.**

**Fənnin tədris planındakı yeri:**

"XX əsr özbək şeiri" fənni 060201-Ədəbiyyatşünaslıq ("Türk xalqları ədəbiyyatı") ixtisaslaşması üzrə tədris olunur. Magistratura üzrə tədris planında seçmə fənn (İF-M5665) olaraq yer alır.

**Fənnin tədris üsulları:** mühazirə, seminar, fərdi işlər, kollokvium

Fənn proqramı tədris planında nəzərdə tutulan saatlara uyğun olaraq tərtib edilmişdir.

## Saatların mövzular üzrə paylanması:

| № | Mövzular | Cəmi | Mühazirə | Seminar |
|---|---|---|---|---|
| 1 | XX əsr özbək ədəbiyyatının ilkin inkişaf meylləri | 4 | 2 | 2 |
| 2 | 30-cu illərdən sonrakı özbək ədəbiyyatının nailiyyətləri | 4 | 2 | 2 |
| 3 | Böyük Vətən müharibəsi dövrü ədəbiyyatı | 4 | 2 | 2 |
| 4 | Müharibədən sonrakı dövrdə özbək poeziyasının nailiyyətləri | 4 | 2 | 2 |
| 5 | XX əsrin II yarısı özbək şeiri | 4 | 2 | 2 |
| 6 | 60-70-cı illərin poeziyası | 4 | 2 | 2 |
| 7 | 80-ci illər özbək poeziyasının istiqamətləri | 4 | 2 | 2 |
| 8 | Müasir özbək şeiri | 2 | 1 | 1 |
| | **Yekun** | **30** | **15** | **15** |

## Mövzular və onların məzmunu

**1. XX əsr özbək ədəbiyyatının ilkin inkişaf meylləri.** Türküstanda mənəvi oyanış. Maarifçiliyin vüsət alması. Milli azadlıq ideyaları uğrunda mübarizə dövrün tələbi kimi.Ensiklopedik zəka sahiblərinin ədəbiyyata gəlişi.

**Əbdülhəmid Çolpan**. XX əsr özbək bədii təfəkkürünün dan ulduzu kimi. Həyat və yaradıcılığı. İlk şeirləri. Qəzetçilik fəaliyyəti. Azadlıq və müstəqillik naminə şeirlərinə görə təqiblərə məruz qalması. “Oyanış”, “Budaqlar”, “Dan” şeirlərində milli düşüncə və təəssübkeşliyin əksi. Maarifçi görüşləri. Çolpanın kütləvi repressiya dövrünün qurbanı olması və bəraət alması. “Türküstan” dərgisi Turan dünyası şəxsiyyətləri haqqında. Şairin “Cəhalət qurbanı” şeirində köləliyə qarşı mübarizəsi. İctimai-siyasi şeirləri. yaradıcılığında tarixi hadisələrin əksi və millli azadlıq ideyalarının təbliği. Vətənə, xalqa, təbiətə məhəbbət: “Baharda”, “Bənövşə”, “Gözəl” şeirlərinin təhlili. “Yazacağam” qəzəlində ümümxalq faciəsinin ifadəsi. “Xalq” şeirində xalq gücünün təsviri. Şeirlərində Türküstan Şərqin simvolu kimi.

**Rəhmutulla Ataqazıyev (Uyğun).** Lirik şeirin inkişafında xidmətləri. “İkinci kitab” Uğun yaradıcılığının dönüş nöqtəsi kimi. 30-cu illər lirikasında yeni cəmiyyətin ruh və duyğuları. Şairin azad insan obrazları.

İdeoloji təbliğat xarakterli şeirləri. “Nəzir atanın qəzəbi” şeiri fədakarlıq, əməksevərliyin xarakterik nümunəsi kimi. Böyük Vətən müharibəsi dövrü yaradıcılığı. “Zəfər tərənəsi”, “Şeirlər” kitablarında məzmun və ideya yeniliyi.

Müharibədən sonrakı dövr yaradıcılığında(45-70-ci illər) gələcəyə inam motivi. “Salam gələcək” şeiri mükəmməl nümunə kimi.

Uyğun uşaq şairi kimi. “İki ana”, “Quşlar gəldi”, “Düşərgədə” şeirlərində vətənə, xalqa, elmə, sənətə bağlılıq ideyası.

XX əsr özbək poeziyasında milli azadlıq məsələləri. Rauf Pərfinin lirikası. A.Aripova həsr etdiyi “Şair” şeirinin təhlili.

**H.Alimcan.** Həyat və yaradıcılığı. Tələbəlik dövrü şeirləri. Millətçi şair kimi təqib olunması və qısa zamanda bəraət qazanması. Poeziyasında milli hiss və duyğuların tərənnümü. “Qızıl dəniz”, “Şərq”, “Özbəkistan” şeirlərində yeni cəmiyyətdəki dəyişikliklər. 30-cu illərin II yarısından etibarən poeziyasının mövzu dairəsinin rəngarəngliyi: “Vətən”, “Bəxt”, “Ölkə” şeirlərində xalqa bağlılıq və məhəbbət motivləri. “Ərik çicəkləyəndə” şeirinin tarixçəsi.

Böyük Vətən müharibəsi dövrü yaradıcılığı. Haqqa inam və düşmənə nifrət ideyası. “Şinel”, “Ana və oğul”, “Silah götür əlinə” şeirlərində müharibə təəssüratları.

Şeirlərinin əxlaqi-didaktik mahiyyəti. E. Vahidovun yaradıcılığında H.Alimcana xas olan lirizm (6),(7),(16),(28).

**2. 30-cu illərdən sonrakı özbək ədəbiyyatının nailiyyətləri. Q.Qulamın həyat və yaradıcılığı.** Uşaqlıq və gənclik illəri. Q.Qulam novator şair kimi. Şeirlərində millilik, tarixilik və müasirlik prinsipləri. 20-ci illərə qədərki şeirləri təcrübəsiz nümunələr kimi.

Yaşadığı dövrün ictimai-siyasi ideologiyası. Xalqın tarixi və taleyi, əmək və zəhmət mövzuları. Türkçülüyə münasibəti. Şeirlərinin ictimai-siyasi mahiyyəti.

Yaradıcılığında insan və cəmiyyət, zaman və məkan problemi. “İki şeir”, “Salamın hikməti”, “Alim dostuma”, “Ağıl və qələm”, “Vaxt”, “Ana” şeirlərinin ideya məzmunu. “Mən Şərqdən gəlirəm” şeirlər silsiləsi humanizm və vətənpərvərliyin parlaq nümunəsi kimi. Tərcümeyi-hal xarakterli şeirləri. Tərcüməçilik fəaliyyəti. Q.Qulam və Ə.Nəvai haqda. Şairin azərbaycanlı tərcüməçiləri. Q.Qulam və S.Vurğun. C.Cabbarov və A.Aripovun şeirlərində Q.Qulama xas olan lirik səda (6),(16), (29),(36),(37).

**3. Böyük Vətən müharibəsi dövrü ədəbiyyatı.** Özbəkistanın sınaq illəri kimi. Müharibənin ilk günlərindən ədəbiyyatda özünü göstərən çeviklik, Vətəni və ictimai quruluşu müdafiə ideyası, fədakarlıq və qəhrəmanlığın tərənnümü. Poeziyanın patetik müraciəti, çağırış və and motivləri. Kütləvi vətənprəvərlik ruhu. H.Əlimcanın “Ana və oğul”, “Silah götür əlinə” şeirləri.

Müxtəlif millətlərin ailə birliyinin ədəbiyyata gətirilməsi. Qarşılıqlı əməkdaşlıq və tərcümə problemləri. Q.Qulam, H.Alimcan, M. Şeyxzadə, Uyğunun, Zülfiyyənin və başqalarının əsərlərinin rus dilinə tərcümələri. A.Tvardovski, Y.Kolas, N.Tixonov və b. sənətkarların müharibə dövrü şeirlərinin özbək dilinə tərcüməsi.

Qafur Qulamın Böyük Vətən müharibəsi dövründə qızğın əmək fəaliyyəti. Cəbhədə əsgərlərlə görüşü. Müharibə mövzusunda yazdığı şeirlər (7), (15), (16),(27).

**4. Müharibədən sonrakı dövrdə özbək poeziyasının nailiyyətləri.** Müharibədən sonra ədəbiyyata gələn şairlər nəsli. Yeni yaradıcılıq problemlərinin ədəbiyyatda inikası. Vahid ailə və sülh uğrunda mübarizəsinin fəal iştirakçıları. Mirtemirin yaradıcılığı.

**Əsqəd Muxtarın ədəbi fəaliyyəti.** Yaradıcılığının məhsuldar dövrü: İlk şeir kitabları: “Həmvətənlərim”, “Sağ ol Mehribanım”, “Çin ürəkdən” şeirləri. Fəhlə həyatının və torpaqların becərilməsi uğrunda gedən mübarizənin təsviri.

Yeni həyatın bədii ifadəsi. Qafur Qulamın “Türksib yollarında” şeirinin simvolikası- sovet dövrü ilə əvvəlki illərin müqayisəsi. Şeirin bədii təsvir vasitələri. Bəşəri fikirlərin poetik ifadəsi.

**Zülfiyyənin həyat və yaradıclığı**. Zülfiyyə obrazını işıqlandıran xarakterik lövhələr. Şairənin jurnalistik fəaliyyəti. Lirikasında hiss və düşüncənin vəhdəti.

30-cu illər poeziyası yaradıcılığının ilkin mərhələsi kimi. Böyük Vətən müharibəsi dövrü yaradıcılığı. “Şeirlər”, “Qızlar nəğməsi” kitablarında vətənə sevgi, gələcəyə inam motivləri.

H.Alimcana həsr olunmuş şeirlər. Həyat ümidsizlikləri. Poeziyasında yeni həyat, qadın azadlığı və qayğıkeş ana obrazının tərənnümü. “Güllərim” şeirlər toplusunun mövzu və problematikası. Yaradıcılığında insanpərvərlik motivləri. Dostları Zülfiyyə haqda. 1956-cı il Hindistan konfransı təəssüratları. H.Əlimcan Zülfiyyə sənətinə təsiri. Zülfiyyə Şərqin ilk Nehru mükafatçısı kimi. M.Aybəkə həsr etdiyi “Nəğməli qələm” poeması. K.Simonovun “Gözlə məni” şeirinin Zülfiyyə yaradıcılığına təsiri. Müasir özbək uşaq ədəbiyyatının inkişafında rolu. Xalq şairi kimi xidmətləri. Zülfiyyə və Azərbaycan ədəbiyyatı. S.Vurğun haqda qeydləri. “Bir dənə papiros” şeirinin tarixçəsi.M. Dilbazinin Zülfiyyədən tərcümələri . köçəri qazaxları oturaq həyat tərzinə çağırış (6), (22),(27), (36), (37), (39).

**5. XX əsrin II yarısı özbək şeiri.** Milli bədii təfəkkür tarixində parlaq iz buraxmış şairlərin portretləri, yaradıcılıq axtarışları.

**Abdulla Aripovun həyat və yaradıcılığı.** Poeziyada Vətən konsepsiyası və Vətən fəlsəfəsinin genişlənməsində A.Aripovun rolu. Tələbəlik illərində mətbuatda fəaliyyəti. "Anacan", "Özbəkistan", "Xatirat", "Hayrat" kitablarına daxil olan şeirlərdə emosional pafos.

60-ci illərdə məhsuldar yaradıcılıq axtarışları. Təbiət və cəmiyyət haqqında fəlsəfi şeirlər. Dini-əxlaqi motivli "Hay dəftəri", "Hədis" şeirlərinin təhlili.

Şairin lirik qəhrəman obrazları. Yaradıcılığında ana yurdun faciələri. ( "Mən neçen sevirəm Özbəkistanı" şeiri) İnsan və həyat haqda fəlsəfi düşüncələri: "Nəsillərə məktub", "Anacan", "Məhəbbət" şeirləri.

A.Aripovun "Nəvai" şeirində milli ideal və kamillik ideyası. Xalq şairi kimi xidmətləri. Dante, Nekrasov, L.Ukrainka, T.Şevçonkodan tərcümələri.

A.Aripov və Azərbaycan.

Şairin Azərbaycanlı tərcüməçiləri. S.Vurğun və A.Aripov. Hər iki şairin yaradıcılığında poetik ruhun hakimliyi.

Ə.Kərim ("Mənim ömrüm") və A.Aripovun ("Ruhum") şeirlərində bənzər poetik motivlər.

**M.Şeyxzadənin həyat və yaradıcılığı.** Lirik-fəlsəfi şeirləri. Vətən müharibəsi dövrü əsgərlərlə görüşü. Həyat və fəaliyyətinin gərgin dövrü: Özbəkistan Yazıçılar İttifaqı üzvlüyündən xaric olunması və yenidən qayıdışın neqativ səbəbləri. Əsərlərinin Azərbaycanda nəşri. M.İbrahimov M. Şeyxzadə haqqında.

30-cu illərdən sonrakı dövr əsas yaradıcılıq mərhələsi kimi. Yeni həyat və xalqlar dostluğunu tərənnüm edən şeirləri: “Simvol”, “Qara taxta”, “Cumhuriyyət” və.s

Sənətkarın dünya şairlərinin yaradıcılığına təsiri. Əsl sənət nümunəsi yaratması haqda qeydləri.

Böyük Vətən müharibəsi illəri yaradıcılığının məhsuldar dövrü kimi. “Kapitan Qastello” müharibə dövrünün əksinin bariz nümunəsi kimi.Vətən mövzusu, bu günün və gələcəyin ifadəsi. Şeirlərində Daşkənd şəhərinin bədii obrazı Şairin folklora bağlılğı. M.Şeyxzadənin tədqiqatçı alim kimi fəaliyyəti. Azərbaycan və özbək xalqı arasında ədəbi körpünün yaradıcısı kimi. H.Şəripovun şeirlərində M.Şeyxzadə poeziya ruhunun əksi (6),(16), (27),(36), (37).

**6. 60-70-cı illərin poeziyası.** Poeziyada baş vermiş köklü dəyişikliklər. Bədii təfəkkürün dəyişməsi və oyanması. Bu dövrün ələmli kitabları. A.Aripovun, R.Pərfinin, Ç.Erqaşın “Anama məktub” şeirlərində ruhi bağlılıq. 60-70-ci il şairlərinin yaradıcılığında siyasi qətlyamların inikası. A.Aripovun “Gedənlərin xatirəsinə” şeiri.

**70-80-ci illərdə Özbək ədəbiyyatında Azərbaycan mövzusu.** H.Əlimcan, Q.Qulam, A.Aripov, Zülfiyyə, E.Vahidovun yaradıcılığında Azərbaycan mövzusu və S.Vurğun ənənələri.

C.Cabbarovun “Bakı şəhərindən düşüncələrim”, “Bu gün bizdə bir qonaq var” şeirlərinin S.Vurğun lirikası ilə bağlılığı.

Akif Azalpın yaradıcılığında Azərbaycan mövzusu.

Turab Tölənin Xəzər təəssüratları. 1975-ci ildə Azərbaycanda keçirilən ədəbiyyat günləri. Özbəkistanlı

sənət adamlarının çıxışları. Zülfiyyənin Bakıya gəlişi. Azərbaycan poeziyası özbək dilində (5), (21), (23), (29),(37), (39).

**7. 80-ci illər özbək poeziyasının istiqamətləri.** Özbək poeziyasının özünəməxsus xüsusiyyətləri. "Yeni Azərbaycan lirikası və Yeni özbək lirikası" (1980) istilahının yaranma tarixi. Poeziyada gerçəkliyi yeni üsulla əks etdirmə tendensiyası. Poetik konfliktin yeni estetikası. A.Aripovun "Qartal", "Qızıl balıq" şeirlərinin ictimai-fəlsəfi mündəricəsi.

Yeni özbək lirikasında E.Vahidov və A.Aripovun klassik rəmzlərə müraciəti. Şairlər milli-mədəni irsin varisləri kimi. Q.Qulam yeni özbək poeziyasının yaradıcısı kimi (16), (21),(22), (37), (39).

**8. Müasir özbək şeiri.** Müstəqillik dövründə qarşılıqlı ədəbi əlaqələrin yeni yolu. Dünya ədəbiyyatında gedən proseslərin milli özbək şeirinə təsiri. Müasir özbək şeirinin yeni mənzərəsi və inkişaf meylləri. Ədəbi prosesin müxtəlif istiqamətlərində şeir yazan müəlliflər haqda məlumat.

**Erkin Vahidov.** Həyat və yaradıcılığı. Jurnalistik fəaliyyəti. İlk şeirləri: "Gənclik divanı", "Gözəllik", "Şirin" və .s

Poeziyasında fəsəfilik və musiqililik. Klassik ədəbiyyata dərindən bələd olması. Öyüd-nəsihət xarakterli şeirləri. "İndiki gənclər" şeirinin təhlili.

70-80-ci illərdə ictimai məzmunlu şeirləri. "Nida", "Gənclik", "Məhəbbətnamə" adlı şeirlər kitabı. Zülfiyyə və H.Əlimcana həsr etdiyi şeirlər. İbn Sina, Şiller, Puşkin, R.Həmzətov, Blok, Yesenindən tərcümələri.

Xalq şairi kimi xidmətləri. E.Vahidov və M.Ə.Yurdaqulun vətən fəlsəfəsinin həmahəngliyi. X.R.Ulutürk E.Vahidov haqda.

**K.Yaşinin** yaradıcılığında müasir insanın düşüncələri. Ictimai və intim marağın təsviri. Şairin şeirlərində yeni dövrün tərənnümü.

Xasiyyət Rüstəmova, İqbal Mirzə, Fəxriyar, Səlim Aşurun ictimai-siyasi və fəlsəfi şeirləri (6), (16), (21), (23), (27), (36), (39).

## Sərbəst iş mövzuları:

1. XX əsr özbək ədəbi-bədii təfəkkürünün formalaşması. Ə.Çolpan, R.Ataqazıyev, H.Alimcanın türk şeirinin inkişafında xidmətləri.
2. Qafur Qulamın həyat və yaradıcılığı.
3. Böyük Vətən müharibəsi dövrü özbək şeiri.
4. Müharibədən sonrakı dövrdə Ə. Muxtarın ədəbi fəaliyyəti və lirik yaradıcılığı.
5. Zülfiyyənin həyat və yaradıcılığı.
6. XX əsrin II yarısında özbək şeirində Vətən konsepsiyası. A.Aripovun yaradıcılığı.
7. Erkin Vahidovun lirik şeirləri.
8. Özbək şeirində Azərbaycan mövzusu.
9. 80-ci illər özbək poeziyasının mövzu və problematikası.
10. Müasir özbək şeirinin yeni mənzərəsi və inkişaf meyilləri.

## ƏDƏBİYYAT:

### ƏSAS:


1. Binnətova A.Ü. Azərbaycan-özbək(cığatay) ədəbi əlaqələri. Bakı: Qartal, 2008, 328 s.
2. Xəlilov P.İ. Türk xalqlarının və Şərqi Slavyanların ədəbiyyatı. Birinci kitab. Bakı: Maarif, 1994,432 s.
3. Quliyev E.H. Türk xalqları ədəbiyyatı. /dərslik/. Bakı: Apoctoroff, 2011,612 s.
4. Ramiz Əskər. XX əsr özbək şeiri antologiyası. Bakı: MBM, 2009, 94s.


### ƏLAVƏ:


5. Azalp Akif. Turan havası. Bakı: Vətən, 2006, 348 s.
6. Binnətova A.Ü. Poeziyada milli azadlıq duyğuları.Bakı: Ağrıdağ, 1997,-115 s.
7. Binnətova A.Ü. Müharibə ağrılarım: elmi və publisistik düşüncələr, portretlər, ədəbi qeydlər. Bakı: Nurlan, 2005.-546 s.
8. Binnətova A.Ü. Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında (məqalələr toplusu). Bakı: Qartal, 2009,-360 s.
9. Cəfərov N.M. Türk xalqları ədəbiyyatı. I cild.Bakı: Çaşıoğlu, 2006,-318 s.
10. Cəfərov N.M. Türk xalqları ədəbiyyatı. II cild.Bakı: Çaşıoğlu, 2006.-318 s.
11. Cəfərov N. M.Türk xalqları ədəbiyyatı.III cild.Bakı: Çaşıoğlu, 2006,-318 s.

12. Cəfərov N. M. Türk xalqları ədəbiyyatı. IV cild. Bakı: Çaşıoğlu, 2007, 318 s.
13. Əliyeva G.K. Çağdaş poeziya və klassik irs. Bakı: Azərnəşr, 2000, 171s.
14. Əliyeva İ.B. Bəxtiyar Vahabzadənin poeziyası. Bakı: Elm, 1980, 220 s.
15. Həbibbəyli İsa. Romantik lirikanın imkanları. Bakı: Yazıçı, 1984, 167 s.
16. Qasımbəyli Yaşar. Milli oyanış və özünəqayıdış lirikası. Bakı: Elm və təhsil, 2012, 449s.
17. Qarayev Y.M. Poeziya və nəsr. Bakı: Yazıçı, 1979, 198 s.
18. Quliyev E.H. Özbək ədəbiyyatı. /dərs vəsaiti/. Bakı: 2009,109 s.
19. Quliyev E.H. Türk xalqları ədəbiyyatı. Bakı: Qismət, 2009, 400 s.
20. Quliyeva M.N. Şərq poetikasının əsas kateqoriyaları. Bakı: Maarif, 2010, 400 s.
21. Salmanov Şamil. Müasirlik mövqeyindən. Bakı: Yazıçı, 1983, 250 s.
22. Sərxanlı Səyavuş. Vətən,səslə oğlunu.Bakı: Şərq-Qərb, 2010, 432 s.
23. Yusifli Vaqif. Poeziya və zaman. Bakı: Mütərcim, 2012, 380 s.
24. Yusifli C.M. Azərbaycan poeziyasında Əli Kərim mərhələsi. Bakı: Adiloğlu, 2005, 170 s.
25. Rza Xəlil. Taparam səni, Şeirlər və poemalar. Bakı, Gənclik, 1980, 268 s.
26. Rza Xəlil. Hara gedir bu dünya. Bakı: Yazıçı, 1983, 280 s.

27. Ulutürk X.R. Poeziya-ən böyük milli sərvət. Turan çələngi. Bakı: Elm, 1992.-792 s.
28. Ulutürk X.R. Seçilmiş əsərləri . Bakı: Gənclik, 2011.-627 s.
29. Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 264 s.
30. Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, 248 s.
31. Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə. III cild. Bakı: Şərq-Qərb, 2005, 424 s.
32. Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə. IV cild. Bakı: Şərq-Qərb, 2005, 400 s.
33. Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, 350 s.

**Özbək dilində**

34. Akramov B. Şeiriyat gavharı. Toşkent: Adabiyot va sanat, 1979, 168 s.
35. Barakayev R. Özbek bolalar adabiyotı va Abdulla Avlaniy icodı. Toşkent: Fan, 2004,158 s.
36. Nurullayeva G. Lirika. Toşkent: Adabiyot va sanat, 1975, 162 s.
37. Oripov A.Yıllar armoni. Toşkent: Adabiyot va sanat, 1992, 231 s.
38. Parfi R. Xotirot. Toşkent: Adabiyot va sanat, 1975, 78 s.
39. Vohidov E. Muhabbat. Toşkent: Adabiyot va sanat, 1976, 447 s.